# ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 05 (266) may 2026


## Ədliyyə Nazirliyinin kollektivi Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



**10 may müstəqil Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümüdür.**

Bununla əlaqədar Ədliyyə naziri Fərid Əhmədov və Nazirliyin kollektivi Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət edib. Ziyarətçilər Ümummilli Liderin məzarı önünə gül dəstələri qoyub, xatirəsini dərin ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, üzərinə güllər düzülüb.

Daha sonra Nazirliyin inzibati binasında Ümummilli Liderin büstü önünə tər güllər qoyulub, xatirəsi ehtiramla anılıb.








## Ədliyyə naziri Şəmkir şəhərində vətəndaşları qəbul edib

**Ədliyyə naziri Fərid Əhmədov 1 may tarixində Şəmkir şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Ağstafa, Qazax, Gədəbəy, Tovuz və Şəmkir rayonlarından ümumilikdə 35 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.





# Pakistan İslam Respublikasının Baş naziri Fərid Əhmədovu qəbul edib



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Pakistana səfəri çərçivəsində Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədovu qəbul edib.**

Fərid Əhmədov ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səmimi salamlarını Pakistan İslam Respublikasının Baş nazirinə çatdırıb. Məhəmməd Şahbaz Şərif də öz növbəsində salamlarını və dərin ehtiramını Azərbaycan dövlət başçısına çatdırmağı xahiş edib.

Görüş zamanı Azərbaycan ilə Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin tarixi, mədəni və dini bağlılıqlara əsaslandığı, eyni zamanda bütün istiqamətlər üzrə strateji tərəfdaşlıq səviyyəsində inkişaf etdiyi vurğulanıb.

Görüşdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Federal Hüquq və Ədliyyə Nazirliyi arasında son iki ildə imzalanmış Əməkdaşlıq Memorandumu və Əməkdaşlıq Proqramı çərçivəsində tərəflər arasında qarşılıqlı təcrübə mübadiləsi üzrə tədbirlərin həyata keçirildiyi bildirilib. İki ölkə arasında imzalanmış hüquqi sənədlərin münasibətlərin inkişafına mühüm töhfə verdiyi qeyd edilib.

Ölkələr arasında hüquqi yardım və ekstradisiya sahəsində səmərəli əməkdaşlıq müzakirə edilib. Həmçinin hüquq və ədliyyə sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi imkanlarının mövcud olduğu vurğulanıb.

# Fərid Əhmədov Pakistan İslam Respublikasına səfəri çərçivəsində bir sıra görüşlər keçirib






**Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov Pakistan İslam Respublikasına səfəri çərçivəsində Pakistanın federal hüquq və ədliyyə naziri Azam Nazir Tarar ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Pakistan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb.

Söhbət zamanı hüquq sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, bu istiqamətdə 2024-cü ildə imzalanmış Əməkdaşlıq Memorandumunun və Memorandumun icrasını nəzərdə tutan Əməkdaşlıq Proqramının münasibətlərin dinamikasını daha da gücləndirəcəyi vurğulanıb.

Əməkdaşlıq Proqramının icrası məqsədilə hazırlanmış Fəaliyyət Planı çərçivəsində ədliyyə sahəsində süni intellektin tətbiqi, rəqəmsallaşma, beynəlxalq müqavilələrin və qanunvericilik aktlarının hazırlanması və digər istiqamətlər üzrə təlimlərin keçirilməsi nəzərdə tutulur. Fəaliyyət Planına əsasən, bu il may və oktyabr aylarında Pakistan İslam Respublikasının paytaxtı İslamabadda, iyul ayında isə Bakıda təlimlərin keçirilməsi planlaşdırılır.

Görüşdə hüquq və ədliyyə sahəsində faydalı müzakirələr aparılıb, müxtəlif istiqamətlər üzrə Azərbaycan təcrübəsinə maraq göstərilib. Sonda qarşılıqlı fəaliyyətlərin ikitərəfli əməkdaşlığın daha da güclənməsinə mühüm töhfə verəcəyi qeyd olunub.





Səfər çərçivəsində Fərid Əhmədov İslamabadın rəmzi sayılan Pakistan Abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Həmçinin nazir Pakistan Milli Assambleyasında olub, sessiya iclasına baş çəkib. Naziri səmimi qarşılayan Assambleya üzvləri iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin strateji xarakter daşıdığını vurğulayaraq, əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildiriblər.

Fərid Əhmədov Pakistan Ali Məhkəməsinin sədri Yəhya Afridi və Federal Konstitusiya Məhkəməsinin sədri Amin-ud-Din Xan ilə də görüş keçirib. Görüşlər zamanı hüquqi sahədə peşəkar təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb, həmçinin Azərbaycan və Pakistan ədliyyə nazirlikləri arasında imzalanmış hüquqi sənədlərin bu istiqamətdə əlaqələrin inkişafına töhfə verdiyi qeyd olunub.

Görüşlərdə hakimlərin peşə hazırlığı, hüquqi təlim proqramları sahəsində əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsinin aparılması məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

# Ədliyyə Nazirliyində sahibkarlarla görüş keçirilib

**Mayın 22-də Ədliyyə Nazirliyinin inzibati binasında sahibkarlıq subyektləri ilə görüş keçirilib.**

Görüşdə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" İşçi qrupunun rəhbəri, ədliyyə nazirinin müavini Toğrul Hüseynov, İşçi qrupun üzvü olan digər şəxslər və sahibkarlar iştirak ediblər. Görüşdə sahibkarların qarşılaşdıqları çətinliklər dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb və müvafiq sahədə qanunvericiliyin müddəaları barədə məlumatlandırılıblar.

Görüş zamanı Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üzrə Yol Xəritəsi" çərçivəsində İşçi qrup tərəfindən görülmüş işlər barədə sahibkarlara məlumat təqdim edilib. Bildirilib ki, İşçi qrupun əsas məqsədi öz fəaliyyət istiqamətlərinə uyğun olaraq biznesin təşviqinə şərait yaradan bütün aspektlərin inkişaf etdirilməsi, maneələrin aradan qaldırılması, mübahisələrin həlli mexanizmlərinin təkmilləşdirilməsi və onların əlçatanlığının təmin edilməsidir.



Qeyd olunub ki, mübahisələrin həlli, məhkəmələrin və digər orqanların qərarlarının daha operativ və effektiv icrası istiqamətində mühüm islahatlar həyata keçirilir. Bu çərçivədə bildirilib ki, məhkəmə və digər orqanların qərarlarının icrası ilə bağlı hərraca çıxarılan əmlakların satışı prosesi tam rəqəmsallaşıb və artıq "Elektron Hərrac Portalı" vasitəsilə həyata keçirilir.

Görüşdə ölkəmizdə məhkəmə qərarlarının icrasının daha çevik, səmərəli və müasir standartlara uyğun təşkili məqsədilə xüsusi icra məmurları institutunun yaradılması istiqamətində görülən tədbirlərdən də bəhs olunub. Bu məqsədlə "Xüsusi icra məmurları haqqında" Qanunun və bundan irəli gələn digər zəruri hüquqi aktların qəbul edildiyi diqqətə çatdırılıb. Qanuna əsasən icra sisteminin qarışıq model üzrə fəaliyyəti nəzərdə tutulur. Yeni model çərçivəsində məhkəmə və digər orqanların qərarlarının icrasının həm dövlət, həm də xüsusi icra məmurları tərəfindən həyata keçirilməsi mümkün olacaq.

Tədbirdə, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyun tarixli 637 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Fəaliyyət Planı" barədə məlumat verilib. Bildirilib ki, Fəaliyyət Planı cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin artırılmasına, məhkumların əmək bazarının tələblərinə uyğun peşə bacarıqları əldə etməsinə və cəza çəkməkdən azad olunmuş şəxslərin sosial adaptasiyasının daha effektiv təmin olunmasına xidmət edir.

Görüş zamanı məhkumların işə götürülməsinə sahibkarların (işəgötürənlərin) marağının artırılması, peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi və məhkumların əməyə marağının təşviqi ilə bağlı sahibkarlıq subyektlərinin təklifləri dinlənilib.

Sonda sahibkarların qarşıya qoyulmuş hədəflərin icrasına göstərdikləri effektiv dəstək yüksək qiymətləndirilib və onlara təşəkkür edilib.

# Ədliyyə orqanlarına işə qəbul olunmuş əməkdaşların andiçmə mərasimi keçirilib

**Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş növbəti müsabiqənin bütün mərhələlərini uğurla tamamlamış və 6 aylıq stajorluq müddəti müəyyən edilməklə işə qəbul olunmuş ədliyyə işçilərinin andiçmə mərasimi keçirilib.**

Yeni ədliyyə qulluqçuları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar. Həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi anılıb.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ədliyyə nazirinin müavini Abiddin Hüseynov çıxışında ədliyyə orqanlarında xidmətin yüksək məsuliyyət, peşəkarlıq və dövlətə sədaqət tələb etdiyini vurğulayaraq, qulluğa qəbul olunan şəxslərin üzərinə mühüm vəzifələrin düşdüyünü bildirib. Nazir müavini qeyd edib ki, andiçmə mərasimi gənc əməkdaşların hüququn aliliyinə, qanunçuluğun təmininə və vətəndaşlara vicdanla xidmət prinsiplərinə sadiqliyinin rəmzidir. Nazir müavini yeni əməkdaşlara gələcək fəaliyyətlərində uğurlar arzulayaraq, onların ədliyyə sisteminin inkişafına layiqli töhfələr verəcəklərinə əminliyini ifadə edib.

Nazirin müşaviri, Müsabiqə Komissiyasının sədri Seyfəlpaşa Əliyev çıxışında bildirib ki, ədliyyə orqanlarına qulluğa qəbul üzrə müsabiqənin bütün mərhələlərini uğurla keçən namizədlər öz bilik və bacarıqları ilə seçilərək ədliyyə orqanlarında xidmət etmək hüququ qazanıblar. Seyfəlpaşa Əliyev yeni əməkdaşların dövlətə və qanunçuluğa sədaqətlə xidmət edəcəklərinə əminliyini ifadə edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra ədliyyə qulluqçularının Ədliyyə Nazirliyinin müxtəlif struktur qurumlarında işə qəbul olunması barədə imzalanmış müvafiq əmr səsləndirilib.

Yeni təyinat almış əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağının önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələri təqdim edilib.

Qeyd edək ki, Nazirliyin Müsabiqə Komissiyası tərəfindən keçirilən sonuncu müsabiqə üzrə ərizə verən 173 hüquqşünasdan 91 nəfər test imtahanında iştirak edib. Test imtahanını, söhbət və icbari təlim mərhələlərini uğurla tamamlamış, 15-i qadın, 8-i kişi olmaqla 23 namizəd ədliyyə orqanlarında işə qəbul edilib.









# Ədliyyə Nazirliyinin Penitensiar xidmətinə qulluğa qəbul olunmuş əməkdaşların andiçmə mərasimi keçirilib

**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayının və penitensiar müəssisələrin vakant ştat vahidlərinin layiqli namizədlərlə komplektləşdirilməsi və şəffaflığın təmin olunması məqsədilə əvvəlcədən dərc edilmiş elanlara uyğun olaraq müraciət etmiş və seçim mərhələlərini uğurla başa vurmuş 41 nəfər yeni əməkdaşın andiçmə mərasimi keçirilib.**

Tədbirdə Dövlət Himni səsləndirilib, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda şəhid olmuş vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov hərbi qulluqçu kimi gizir, həmçinin kiçik rəis heyəti vəzifələrinə təyin ediləra xüsusi rütbələr almış əməkdaşlara ədliyyə naziri Fərid Əhmədovun təbriklərini çatdırıb, onlara gələcək xidmətlərində uğurlar diləyib, ədliyyə işçisi adını şərəflə daşımağı tövsiyə edib.

Çıxış edən gənclər onlara göstərilən etimadı doğrultmaq üçün var qüvvələri ilə çalışacaqlarını, ədliyyə işçisi adını daim uca tutacaqlarını bildiriblər.

Sonda təntənəli qaydada and içən əməkdaşlara xidməti vəsiqələr təqdim edilib.

# Ədliyyə Nazirliyi bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirir





**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**



Mayın 21-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Şəmkir, İmişli, Sumqayıt, Şəki, Gəncə və Lənkəran regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videokonfrans vasitəsilə qəbul keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda Notariat, qeydiyyat və reyestr baş idarəsi və İnsan resursları idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı 9 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

**May ayı ərzində Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə Nazirliyin Bələdiyyələrlə iş baş idarəsi, Notariat, qeydiyyat və reyestr baş idarəsi, İcra xidməti, İnsan resursları idarəsi və Məhkəmə Ekspertizası Mərkəzinin rəhbərliyi tərəfindən Bərdə, Gəncə, Göyçay, İmişli, Lənkəran, Şəki, Şəmkir, Sumqayıt, Şirvan və Xaçmaz regional ədliyyə idarələri ilə birlikdə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.**

Videoqəbullarda Nazirliyin fəaliyyət istiqamətləri üzrə 63 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.



# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı test imtahanı keçirilib

**Mayın 7-də Ədliyyə Nazirliyi Dövlət İmtahan Mərkəzi ilə birlikdə ədliyyə orqanlarına qulluğa qəbulla bağlı test imtahanı keçirib.**





Üç saat davam edən imtahanda namizədlərə 80 sual qanunvericilik və 20 sual məntiqi təfəkkür üzrə olmaqla, ümumilikdə 100 sual təqdim edilib. Qanunvericilik üzrə hər sual 1 balla, məntiqi təfəkkür üzrə hər sual 0.5 balla qiymətləndirilib, imtahandan keçid balı isə 55 olub.

İmtahanda iştirak edən 119 namizəddən 95 nəfəri uğur qazanaraq növbəti mərhələdə iştirak şansı qazanıb. Namizədlər test imtahanını yekunlaşdırdıqda topladıqları bal barədə məlumatla tanış olmaq imkanına malik olublar.

Qeyd edək ki, uğur qazanmış namizədlər müsabiqənin söhbət mərhələsində iştirak etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş sənədlərini 15 iş günü ərzində, saat 9:00-dan 18:00-dək Ədliyyə Nazirliyinin İnsan resursları idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər.

Namizədlərin təqdim etməli olduğu sənədlərin siyahısı ilə linkə keçid edərək tanış olmaq mümkündür.

Təqdim etdiyi sənədlərə görə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş tələblərə cavab verən namizədlər müsabiqənin ikinci mərhələsinə buraxılacaq və onlarla fərdi qaydada söhbət aparılacaq. Söhbətin keçirilmə vaxtı və yeri barədə namizədlərə əvvəlcədən məlumat veriləcək.

İmtahan nəticələri ilə bağlı Apellyasiya Komissiyası 8 və 12 may tarixlərində saat 14:00-dan 17:00-dək Dövlət İmtahan Mərkəzinin əsas inzibati binasında fəaliyyət göstərəcək (Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299).

# Ali təhsil müəssisələrində ədliyyə orqanlarında karyera imkanları barədə infosessiyalar keçirilir







**Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetində tələbələr üçün ədliyyə orqanlarında karyera imkanlarına həsr olunmuş infosessiyalar təşkil edilib.**



Ümumilikdə 1.600-ə yaxın iştirakçının qatıldığı tədbirlərdə gənclərə ədliyyə orqanlarında qulluğa qəbul qaydaları, karyera imkanları, peşə perspektivləri və könüllülük fəaliyyəti barədə ətraflı məlumat verilib.

Görüşlərdə, həmçinin icra məmuru vəzifələri üzrə hüquq təhsili tələbinin ləğvi ilə bağlı tətbiq edilən



yeniliklər diqqətə çatdırılıb. Bildirilib ki, bu dəyişikliklər bütün ixtisaslar üzrə ali təhsilli məzunların ədliyyə orqanlarında fəaliyyət imkanlarını artırır.

Eyni zamanda, könüllülük və təcrübə proqramlarının üstünlükləri, bu proqramların gənclərin peşəkar inkişafında rolu qeyd olunub, tələbələrin erkən mərhələdə praktiki bilik və bacarıqlar əldə etmələrinin əhəmiyyəti vurğulanıb.



Tədbirlərin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb, ədliyyə orqanlarında karyera qurmaq istəyən gənclərə müvafiq tövsiyələr verilib.

Bu görüşlərin davamlı olaraq respublikanın digər ali təhsil müəssisələrində də keçirilməsi nəzərdə tutulur.



# Ədliyyə Akademiyasında dövlət qulluqçuları üçün ixtisasartırma təlimləri keçirilir



**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında dövlət qurumlarının əməkdaşlarının peşə hazırlığının artırılması məqsədilə ixtisasartırma təlimlərinə start verilib.**

Təlim proqramının açılış mərasimində Akademiyanın rektoru Rövşən İsmayılov çıxış edərək bildirib ki, dövlət idarəçiliyində səmərəliliyin artırılması insan resurslarının peşəkarlıq səviyyəsi ilə birbaşa bağlıdır və bu kimi təlimlər dövlət qulluqçularının həm nəzəri, həm də praktiki biliklərinin inkişafında mühüm rol oynayır.

Daha sonra Tədris şöbəsinin rəisi Zeynab Qənbərova təlimlərin hüquqi əsasları və təşkilati məsələləri barədə ətraflı məlumat verib.

Təlim proqramı çərçivəsində iştirakçılar "Normayaratma fəaliyyəti", "İnzibati icraat qanunvericiliyi", "Əmək qanunvericiliyinin praktiki məsələləri" mövzularında mühazirələr dinləyəcəklər.

Bundan əlavə, proqram çərçivəsində iştirakçıların praktiki bacarıqlarının artırılması məqsədilə interaktiv müzakirələr, real hüquqi situasiyaların təhlili və təcrübə mübadiləsi sessiyaları təşkil olunacaq.

Təlimlərin sonunda iştirakçıların təklif olunduğu qurumlara proqramın nəticələrinə dair Ədliyyə





Akademiyası tərəfindən yekun hesabatlar təqdim ediləcək.

Qeyd edək ki, təlimlər "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq təşkil edilir. Bu qanundan irəli gələrək Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və İnsan hüquqları üzrə müvəkkil aparatlarında, habelə 2-ci və 5-ci kateqoriya dövlət orqanlarında ali hüquq təhsili tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları mütəmadi olaraq Ədliyyə Akademiyasında peşə hazırlığına və ixtisasartırma təlimlərinə cəlb edilirlər.

# Ədliyyə Nazirliyinin nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib

**7-9 may tarixlərində Tbilisi şəhərində Gürcüstanın Milli İcra Bürosunun təşkilatçılığı ilə ”Müasir ədliyyədə icra məmurunun transformasiya olunan rolu” mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin nümayəndə heyəti də iştirak edib.**




Konfrans çərçivəsində müasir icra sistemlərinin inkişaf istiqamətləri, icra məmurunun dəyişən peşə rolu, rəqəmsal icra infrastrukturu, insan hüquqları və şəffaflıq prinsipləri, habelə onlayn satışlar və yaşayış sahələrindən çıxarılma proseslərində mütənasiblik məsələləri ətrafında müzakirələr aparılıb.

Konfransda bildirilib ki, müasir icra sistemi artıq yalnız məhkəmə qərarlarının məcburi icrası mexanizmi deyil, həm də şəffaflıq, operativlik və ictimai etimada əsaslanan idarəetmə və xidmət modeli kimi formalaşır. Qeyd olunub ki, müasir icra məmuru qanuni səlahiyyətlərlə yanaşı, tərəflərlə effektiv kommunikasiya quran, sosial həssaslığı nəzərə alan və rəqəmsal alətlərdən səmərəli istifadə edən peşəkar olmalıdır.

Tədbirdə elektron idarəetmə sistemləri və süni intellekt texnologiyalarının icra prosesinin izlənməsi, müddətlərə nəzarət, borcluların aktivlərinin müəyyənləşdirilməsi, bank hesablarına yönəltmənin səmərəliliyinin artırılması, analitik məlumatların hazırlanması və qərarvermə prosesinin daha səmərəli təşkilinə mühüm töhfə verdiyi vurğulanıb.

Konfransda təqdim olunan yanaşmalar ölkəmizdə ”Elektron icra” informasiya sisteminin növbəti inkişaf mərhələsi, icra proseslərində şəffaflığın və hesabatlılığın gücləndirilməsi, sosial həssas qrupların iştirakçı olduğu işlərdə mütənasib yanaşmanın tətbiqi, habelə dövlət və gələcək xüsusi icra məmurları üçün vahid rəqəmsal standartların formalaşdırılması baxımından faydalı nümunə kimi qiymətləndirilir.

# Ədliyyə Akademiyasının nümayəndə heyəti Daşkənddə beynəlxalq forumda iştirak edib

**Daşkənd şəhərində ”Türk dövlətlərində məhkəmə-hüquq təhsili və ədalət mühakiməsi: rəqəmsal transformasiya və qabaqcıl yanaşmaların inteqrasiyası” mövzusunda beynəlxalq forum keçirilib.**



Türk Dövlətləri Məhkəmə-Hüquq Təhsili Şəbəkəsinə Özbəkistan Respublikasının sədrliyi çərçivəsində təşkil olunan forumda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan məhkəmə-hüquq təhsili müəssisələrinin nümayəndələri, beynəlxalq ekspertlər və akademik dairələrin təmsilçiləri iştirak ediblər.

Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru Rövşən İsmayılovun rəhbərliyi ilə Akademiyanın nümayəndə heyəti də forumda təmsil olunub. Rövşən İsmayılov çıxışında türk dövlətləri arasında məhkəmə-hüquq təhsili sahəsində əməkdaşlığın və institusional əlaqələrin əhəmiyyətini vurğulayıb.

Forum çərçivəsində süni intellektin hüquq təhsilində tətbiqi, rəqəmsal təhsil imkanları, innovativ tədris modelləri və peşə etikası məsələləri müzakirə olunub. İştirakçılar Özbəkistan Respublikası Ədliyyə Akademiyasının müasir tədris infrastrukturu və ”Elektron Təlim” sistemi ilə tanış olublar.

Səfər çərçivəsində Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə Özbəkistan Respublikası Ədliyyə Akademiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb.

Memorandum məhkəmə-hüquq təhsili sahəsində əməkdaşlığın genişləndirilməsi və birgə elmi-tədris təşəbbüslərinin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Forum iştirakçıları, həmçinin Daşkənddə İslam Sivilizasiyası Mərkəzi və Səmərqənd şəhərinin tarixi abidələri ilə tanış olublar.

# Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin nümayəndə heyəti ilə görüş

**Mayın 19-da Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Baş katibi Metyu Morinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə keçirilən görüşdə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş və Beynəlxalq əməkdaşlıq baş idarələrinin nümayəndələri iştirak ediblər.

Görüşdə Azərbaycan ilə Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi arasında yerli özünüidarəetmə institutunun gücləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində uzunmüddətli əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Ədliyyə Nazirliyinin nümayəndələri tərəfindən Azərbaycanda bələdiyyə institutunun mövcud vəziyyəti, yerli özünüidarəetmə sahəsində həyata keçirilən islahatlar, bələdiyyələrin institusional potensialının artırılması, maliyyə dayanıqlığının gücləndirilməsi, şəffaflıq və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi barədə məlumat verilib.

Bildirilib ki, son dövrdə ölkədə yerli özünüidarəetmə sahəsində mühüm islahatlar həyata keçirilib. Bələdiyyələrin birləşdirilməsi nəticəsində daha dayanıqlı və geniş imkanlara malik bələdiyyə qurumlarının formalaşdırılması, yeni seçilmiş bələdiyyə üzvləri ilə maarifləndirmə və metodoloji işin təşkili, habelə ”Bələdiyyələrlə iş” informasiya sistemi vasitəsilə elektron sənəd dövriyyəsinin təşkili və bələdiyyələrin vahid informasiya sisteminin inkişafı bu sahədə idarəetmənin səmərəliliyinin artırılmasına xidmət edən əsas istiqamətlər kimi qeyd edilib.

Metyu Mori sonuncu monitorinqdən keçən dövrdə Azərbaycanda yerli özünüidarəetmə sahəsində həyata keçirilən islahatları təqdirəlayiq hesab etdiyini bildirib. Bununla yanaşı, ehtiyac duyulan sahələr üzrə birgə layihələrin hazırlanmasına və praktiki əməkdaşlığın genişləndirilməsinə hazır olduqlarını diqqətə çatdırıb.

Tərəflər yerli özünüidarəetmə sahəsində dialoqun davam etdirilməsi, ekspert dəstəyinin gücləndirilməsi, qabaqcıl Avropa təcrübəsinin öyrənilməsi və birgə layihələrin həyata keçirilməsi istiqamətində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüş qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi ilə davam edib.

# Ədliyyə Nazirliyinin bir sıra xidmətləri ”mygov” platformasına inteqrasiya olunub

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin ”Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı”ndan irəli gələn tapşırıqların icrası istiqamətində Ədliyyə Nazirliyi tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir.**




Rəqəmsal dövlət xidmətlərinin ”bir pəncərə” prinsipi əsasında vahid platforma üzərindən təqdim olunması məqsədilə Nazirliyin bir sıra xidmətləri ”mygov” platformasına inteqrasiya edilib.

Yeni inteqrasiya nəticəsində vətəndaşlar artıq Ədliyyə Nazirliyinin təqdim etdiyi bəzi xidmətlərdən əlavə platformalara keçid etmədən birbaşa ”mygov” üzərindən istifadə edə bilirlər. Bu yanaşma dövlət xidmətlərinin vahid platformaya inteqrasiyası, istifadəçi təcrübəsinin sadələşdirilməsi və xidmətlərə çıxışın asanlaşdırılması məqsədini daşıyır.

”mygov” platformasına inteqrasiya olunan yeni xidmətlər tərcümə xidməti, azyaşlının ölkəni tərk etməsi üçün razılıq ərizəsi və fiziki şəxslərə aid icra işləri barədə məlumatların təqdim olunmasıdır.

”Tərcümə xidməti” vasitəsilə vətəndaşlar notariat qaydasında təsdiqi mümkün olan, eləcə də notariat təsdiqi mümkün olmayan sənədlərin tərcüməsi üçün elektron qaydada müraciət edə bilərlər. İstifadəçi sənəd və tərcümə dili barədə məlumatları daxil edib sənədi platformaya yüklədikdən və ödəniş mərhələsini tamamladıqdan sonra müraciət aidiyyəti üzrə göndərilir. Eyni zamanda, müraciətin statusu və icra tarixçəsi ”mygov” üzərindən izlənilə bilir.

”Azyaşlının ölkəni tərk etməsi üçün razılıq ərizəsi” xidməti çərçivəsində vətəndaş azyaşlı, müşayiətçi və səfərlə bağlı məlumatları daxil edir, video identifikasiya və ödəniş mərhələlərini tamamladıqdan sonra müraciət aidiyyəti üzrə göndərilir. Xidmətin nəticəsi barədə istifadəçiyə bildiriş təqdim olunur.

”Fiziki şəxslərə aid icra işləri barədə məlumatların təqdim olunması” xidməti vasitəsilə isə istifadəçilər özlərinə aid icra işləri və həmin işlər üzrə sənədlərlə platforma üzərindən tanış ola, həmçinin sənədləri PDF formatında yükləyə bilirlər. Bu xidmət məlumatların operativ və rahat şəkildə əldə olunmasına imkan yaradır.

Qeyd edək ki, sözügedən xidmətlərlə yanaşı, bundan əvvəl də Ədliyyə Nazirliyinin həyat hadisələri əsaslı 5 xidməti və notariat fəaliyyəti ilə bağlı 4 xidməti ”mygov” platformasına inteqrasiya olunub.

Vətəndaşlar xidmətlərdən həm ”my.gov.az” portalı, həm də ”mygov” mobil tətbiqi vasitəsilə istifadə edə bilərlər.

# Özəl məhkəmə ekspertizası institutunun tətbiqi ilə bağlı vəkillər arasında sorğu keçirilib

**"Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"ya uyğun olaraq, özəl məhkəmə ekspertizası institutunun tətbiqi imkanlarının qiymətləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi və Vəkillər Kollegiyası tərəfindən vəkillər arasında birgə onlayn sosioloji sorğu keçirilib.**

Sorğunun əsas məqsədi bu sahədə mümkün risklərin qiymətləndirilməsi, mövcud təşkilati və metodiki çatışmazlıqların müəyyən edilməsi, həmçinin praktikada daha çox ehtiyac duyulan ekspertiza sahələrinin dəqiqləşdirilməsi olub.

Sorğuda iştirak edən vəkillərin 82,1%-i mülki, 51,4%-i cinayət, 46,4%-i isə inzibati və kommersiya mübahisələri sferasında daha çox fəaliyyət göstərən vəkillərdir. Statistikaya əsasən, respondentlərin 83,2%-i fiziki şəxslərin, 49,7%-i hüquqi şəxslərin (şirkətlərin), 6,1%-i dövlət orqanlarının hüquqlarını müdafiə edir, 17,9%-i isə dövlət hesabına hüquqi yardım göstərir.

İş stajına görə respondentlərin 24,6%-i 5 ilədək, 17,9%-i 6-10 il, 21,2%-i isə 11 ildən çox təcrübəyə malikdirlər.

Sorğunun nəticələrinə əsasən vəkillərin 40,3%-i il ərzində orta hesabla 15-50 aralığında məhkəmə ekspertizasının təyin edilməsi barədə vəsatət verir ki, bu da ədalət mühakiməsinin həyata keçirilməsində ekspertiza institutunun mühüm əhəmiyyətini bir daha təsdiq edir.

Sorğu çərçivəsində respondentlər məhkəmə ekspertizası fəaliyyətinin mövcud vəziyyətini qiymətləndirib, həmçinin özəl ekspertiza institutunun tətbiqinin mümkün nəticələri və perspektivləri ilə bağlı mövqelərini ifadə ediblər.




Sorğunun nəticələri göstərir ki, vəkillər özəl məhkəmə ekspertizası institutunun tətbiqinin bir sıra müsbət təsirlərə səbəb ola biləcəyini ehtimal edirlər. Belə ki, 45,8% respondent ekspertizanın icra müddətlərinin qısalacağını, 49,2% ekspert rəylərinin keyfiyyətinin yüksələcəyini, 58,7% bu sahədə rəqabət mühitinin formalaşacağını, 48% ekspert rəylərinə etimadın artacağını mümkün hesab edir.

Bununla yanaşı, respondentlər özəl məhkəmə ekspertizası institutunun tətbiqi nəticəsində mümkün ola biləcək müəyyən riskləri də qeyd ediblər. Belə ki, 34,1%-i tərəflər arasında prosessual bərabərsizliyin yarana biləcəyini, 32,4%-i maraqların toqquşmasını orta ehtimal kimi dəyərləndirib.

Sorğunun mühüm hissələrindən biri məhkəmə ekspertizası sahəsində ehtiyac duyulan istiqamətlərin müəyyən edilməsi olub. Sorğunun nəticələrinə əsasən aşağıdakı ekspertiza sahələri yüksək və çox yüksək ehtiyac duyulan istiqamətlərdir:

- yol-nəqliyyat hadisələri üzrə ekspertiza (70,9%)
- məhkəmə tikinti-texniki ekspertizası (69,3%)
- məhkəmə-mühasibat ekspertizası (62,6%)
- məhkəmə-əmtəəşünaslıq ekspertizası (59,2%)
- məhkəmə-psixoloji ekspertizası (57%)
- audio və videoyazıların məhkəmə ekspertizası (56,4%)
- o məhkəmə kompüter-texniki ekspertiza (54,2%)

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunun 21-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində nəzərdə tutulmuş hallarda fiziki və ya hüquqi şəxslər, həmin şəxslərin vəkilləri və nümayəndələri (qanuni nümayəndələri) məhkəmə ekspertizasının aparılmasını sifariş vermək üçün özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdirlər.

Bundan əlavə, açıq sual formatında respondentlər siyahıda yer almayan, lakin zəruri hesab etdikləri sahələri də qeyd ediblər. Bu istiqamətdə aşağıdakı ehtiyaclar xüsusilə vurğulanıb:

- məhkəmə-psixiatrik ekspertiza xidmətlərinin inkişafı;
- məhkəmə-ballistik, trasoloji və narkoloji ekspertizalar;
- məhkəmə-tibb ekspertizası sahəsində özəl məhkəmə ekspertizası institutunun formalaşdırılması.

Sorğunun nəticələri məhkəmə ekspertizası sahəsində islahatların həyata keçirilməsi, özəl məhkəmə eksperti institutunun fəaliyyətə başlaması və məhkəmə ekspertizasının müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, əldə olunan nəticələr normativ-hüquqi bazanın təkmilləşdirilməsi və institusional inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün əsaslı zəmin yaradır.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Şərur" Sudan İstifadəedənlər Birliyi

**Qeydiyyat tarixi:** 23.04.2026
**Qeydiyyat N-si:** 640026-NQ16-164
**Maliyyə ili:** 1 yanvar-31 dekabr
**Ünvan:** Şərur rayonu, M.Ə.Sabir küçəsi
**Fəaliyyət ərazisi:** Naxçıvan Muxtar Respublikası
**Fəaliyyət predmeti və məqsədi:** Xidmət göstərdiyi ərazidə istifadəsində olan meliorasiya və irriqasiya sistemlərini idarə etmək və torpaq istifadəçilərini mütəşəkkil səmərəli və ədalətli olaraq su ilə təmin etmək
**Qanuni təmsilçisi:** İbrahimov Qənimət Fəxrəddin oğlu

### "İncəsənət Klubu" İctimai Birliyi

**Qeydiyyat tarixi:** 29.04.2026
**Qeydiyyat N-si:** 640026-NQ16-165
**Maliyyə ili:** 1 yanvar-31 dekabr
**Ünvan:** Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 25 ev 1
**Fəaliyyət ərazisi:** Naxçıvan Muxtar Respublikası
**Fəaliyyət predmeti və məqsədi:** Yaradıcılıq, incəsənət və sosial-pedoqoji təşəbbüslər, psixoterapiya və artterapiya vasitəsilə fərdlərin-xüsusilə uşaqların, yeniyetmələrin,gənclərin, qadınların və ailələrin-estetik, intellektual və sosial inkişafına dəstək göstərmək
**Qanuni təmsilçisi:** Əsgərli Mənsur Nurəli oğlu

### "Kənd Qadınlarına Qayğı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 11.11.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q3-1622
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəcəbova Pərvanə Abid qızı olmuşdur
**Dəyişiklik:** 01.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Optimist" Sosial Problemlərin Həllinə Yardım ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.07.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q12-2182
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Niftalı Habil Abid oğlu olmuşdur
**Dəyişiklik:** 04.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Əlil Təşkilatları İttifaqı"

**Qeydiyyat tarixi:** 16.04.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1720
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni adı: Əlilliyi olan Şəxslərin Təşkilatları İttifaqı, qanuni təmsilçisi Rəhimli Davud Səid oğlu olmuşdur
**Dəyişiklik:** 04.05.2026-cı il tarixdə qeydə alınıb

### "Mədəniyyətin və Milli Ənənələrin Təbliği" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q59-3501
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Etibar Teyyub oğlu olmuşdur
**Dəyişiklik:** 04.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Müharibədən Zərər Çəkmiş Ailələrə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 01.02.2013-cü il
**Qeydiyyat N-si:** 1113-Q44-3141
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Ətrabə Novruz qızı olmuşdur
**Dəyişiklik:** 04.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Azərbaycan Turizm İnstitutunun Məzunları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2012-ci il
**Qeydiyyat N-si:** 1112-Q40-3064
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Ağamirov Ağamir Mirəli oğlu olmuşdur
**Dəyişiklik:** 05.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Sağlam Ailə" ailələrin maarifləndirilməsinə kömək ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.11.2011-ci il
**Qeydiyyat N-si:** 1111-Q38-3008
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyeva Balaxanım Xanlar qızı olmuşdur
**Dəyişiklik:** 05.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Vətənpərvərlər" Maarifləndirmə ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q76-3931
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, Cavanşir küçəsi, ev 7, mənzil 64, yeni qanuni təmsilçisi İsayeva Aynur Ədalət qızı olmuşdur
**Dəyişiklik:** 05.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Qafqaz İt Cinslərinin Həvəskarları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.05.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q10-2101
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qasımzadə Murad İlham oğlu olmuşdur
**Dəyişiklik:** 05.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Boccia İdman Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 16.02.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q62-3559
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Behbudov Vüqar Şəfa oğlu olmuşdur
**Dəyişiklik:** 07.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Əlilliyi Olan Şəxslərin Müstəqil Həyat Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q3-1677
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Xəlilov Aydın Soltan oğlu olmuşdur
**Dəyişiklik:** 08.05.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Qusarda qadınların sosial inkişafına dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.07.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q73-3845
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Nəcəfova Kamilə İsmayıl qızı olmuşdur
**Dəyişiklik:** 08.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Davamlı Elmi-Sosial İnkişaf" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 21.07.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q12-2177
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hacıyeva Reyhanə Ramiz qızı olmuşdur
**Dəyişiklik:** 08.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Qarabağ İtkin Ailələri" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.01.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q81-4147
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Behbudova Könül Behbud qızı olmuşdur
**Dəyişiklik:** 08.05.2026-cı il tarixdə qeydə alınıb

**"Xətai-33" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti**

**Qeydiyyat tarixi:** 28.01.2022-ci il
**Qeydiyyat N-si:** 1122-MM9-0230
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Namazov Yenişad Namaz oğlu olmuşdur
**Dəyişiklik:** 12.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Yapon Döyüş Növləri və Mədəniyyəti Assosiasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 19.04.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q79-4030
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Ağamirov Atil Ağa oğlu olmuşdur
**Dəyişiklik:** 12.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Ailə və Uşaqların Sosial Problemlərinin Həllinə Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 19.04.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q79-4033
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mustafayev Alı Baba oğlu olmuşdur
**Dəyişiklik:** 12.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.11.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q6-1937
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənova Şəlalə Arif qızı olmuşdur
**Dəyişiklik:** 13.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Sabah Peşəkar İdman Klubu" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.06.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q63-3594
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Yaqub Valeh oğlu olmuşdur
**Dəyişiklik:** 13.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Perspektiv" Siyasətin Texnologiyaları ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.01.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q16-2305
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qonaqov Pərviz Rəhim oğlu olmuşdur
**Dəyişiklik:** 14.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Əlilliyi olan uşaq və gənclərin idmana inteqrasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.06.2016-cı il
**Qeydiyyat N-si:** 1116-Q55-3389
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: AZ 1117, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Natəvan küçəsi, giriş 111, M2, m3; Köhnə ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Natəvan küçəsi, 52C, 5025-ci məhəllə, ev 4, mənzil 3, qanuni təmsilçisi Məmmədova Ağayeva Aynur Tofiq qızı olmuşdur
**Dəyişiklik:** 15.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi**

**Qeydiyyat tarixi:** 10.07.1998-ci il
**Qeydiyyat N-si:** 1048
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni adı: "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi ictimai birliyi, qanuni təmsilçisi İsmayılov Rafiq Eldar oğlu olmuşdur
**Dəyişiklik:** 18.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Quba Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.06.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2872
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Xeyrullayev Eynulla Niftulla oğlu olmuşdur
**Dəyişiklik:** 18.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Araz" Humanitar Tədqiqatlar ictimai birliyi**

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q9-2044
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Zeynallı Lütvəli Əzizağa oğlu olmuşdur
**Dəyişiklik:** 19.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Yasamal-12" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti**

**Qeydiyyat tarixi:** 15.05.2017-ci il
**Qeydiyyat N-si:** 1117-MM4-0048
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əkbərov Nazim Fərhad oğlu olmuşdur
**Dəyişiklik:** 19.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Mühit" ekoloji mühafizə ictimai birliyi**

**Qeydiyyat tarixi:** 28.02.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q16-2318
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hünbətəliyev Əzizağa Adışirin oğlu olmuşdur
**Dəyişiklik:** 20.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Sosial Hüquqların Müdafiə Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 18.05.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q80-4056
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Teyyublu Xəzər Qardaşəli oğlu olmuşdur
**Dəyişiklik:** 20.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Hədəf" idman klubu ictimai birliyi**

**Qeydiyyat tarixi:** 24.04.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q63-3584
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Şahverdiyev Rafail İftixar oğlu olmuşdur
**Dəyişiklik:** 20.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**Azərbaycan Respublikası "Çernobıl Əlillər İttifaqı" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 26.07.1990-ci il
**Qeydiyyat N-si:** 413
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Mirhəsən Yusif oğlu olmuşdur
**Dəyişiklik:** 21.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Nizami-16" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti**

**Qeydiyyat tarixi:** 22.05.2023-cü il
**Qeydiyyat N-si:** 1123-MM10-0285
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Qasımov Şahin Zakir oğlu olmuşdur
**Dəyişiklik:** 21.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Dünya Azərbaycanlıları" gənclərin ictimai birliyi**

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q8-2016
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həbibzadə Ramin Zahid oğlu olmuşdur
**Dəyişiklik:** 21.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Azərbaycan Muay Tay-Tayboks Federasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 22.06.1995-ci il
**Qeydiyyat N-si:** 914
Konfransın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Həsənsoy Azər Kamal oğlu olmuşdur
**Dəyişiklik:** 21.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Cəlilabad-Biləsuvar" ekologiyanın qorunmasına yadım ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.12.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q34-2916
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Verdiyev Mətləb Mustafa oğlu olmuşdur
**Dəyişiklik:** 22.05.2026-cı il tarixdə qeydiyyata alınıb

**ELAN**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 2016-cı il 1 mart tarixli 1116-QK6-0028 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Elm Tarixi İnstitutu ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra altmış gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilmiş ünvana bildirsinlər: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 30

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 31.10.2017-ci il tarixli 1117-Q60-3534 nömrə ilə dövlət qeydiyyatına alınmış "Sənətşünaslığın Təbliği" İctimai Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: AZ1131, Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi, V yasayış sahəsi, ev 12, mənzil 173

***

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 18 mart 2025-ci il tarixli 640025-NQ15-162 nömrə ilə dövlət qeydiyyatına alınmış "Naxçıvan Regional Voleybol Mərkəzi" İctimai Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göndərilən ünvana bildirsinlər:
Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 110


| | | | |
|---|---|---|---|
| **Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi **Buraxılışa məsul:** Rasim Həsənov | **Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 537-06-40 | Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır. | Reyestr N 769 |